# Azərbaycan xalqının tarixi yaddaşına həkk olunmuş qanlı faciələr

## köçürülmə prosesləri və onun acı nəticələri



*Tarixdən məlumdur ki, 1917-ci ilin noyabrında Bakıda hakimiyyəti ələ keçirmiş və tərkibi əsasən ermənilərdən ibarət olan "Bakı Kommunası" hökuməti "əks-inqilabçı ünsürlərlə mübarizə" adlı uydurma şüar altında ölkəmizin müxtəlif bölgələrinə erməni-daşnak silahlı caza dəstələri göndərmişdi. S.Şaumyan və G.Karqanovun rəhbərliyi altında həmin silahlı dəstələr 1918-ci il martın 30, 31-də və aprelin 1-də Bakıda, 1918-ci ilin mart-may aylarında Bakı quberniyasının Şamaxı, Göyçay, Ərəş və Quba qəzalarının kəndlərində, habelə digər bölgələrdə azərbaycanlılara qarşı insanlığa sığmayan kütləvi qanlı qırğınlar törətmiş, minlərlə günahsız, dinc əhalini qətlə yetirmişdilər.*

Həmin qırğınlar T.Əmiryan, H.Amazasp, C.Lalayev və digər cinayətkar erməni-daşnak "hərbçi"lərinin başçılığı altında həyata keçirilmişdir. S.Şaumyanın başçılıq etdiyi erməni-daşnak-bolşevik qüvvələri Azərbaycanın dinc əhalisinə qarşı misli görünməmiş soyqırımı həyata keçirərək yalnız Bakıda 11 min nəfərdən artıq insanı qətlə yetirmişdilər. Quba qəzasında S.Şaumyanın xüsusi səlahiyyətlər verdiyi H.Amazaspın başçılığı altında 122 müsəlman kəndi dağıdılmış, Azərbaycanın minlərlə dinc əhalisi məhv edilmişdir. Tarixi sənədlər təsdiq edir ki, azərbaycanlıların soyqırımı Bakı və Gəncə quberniyalarında, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Zəngilanda və digər bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Şamaxı şəhəri və azərbaycanlılar yaşayan 86 kənd Bakı Sovetinin bolşevik-erməni-daşnak silahlı dəstələri tərəfindən viran edilmişdir. Şamaxı qəzasının təkcə 53 kəndində ermənilər tərəfindən 8027 nəfər azərbaycanlı qətlə yetirilmişdi ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Şamaxıda yerli əhaliyə dəyən maddi ziyan o dövrün qiymətləri ilə bir milyard rubldan çox olmuşdur. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır.

Azərbaycanlıların kütləvi surətdə qırğına və repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi, didərgin salınması XX əsrin bəşər tarixində qanlı, faciəli səhifələrdən biridir. Bu soyqırımı Azərbaycan xalqının və onun dövlətçiliyinin tarixində baş vermiş ən faciəli hadisələrdən biri kimi xalqımızın yaddaşına həkk olmuşdur.

Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərin Zaqafqaziyada dinc müsəlman əhalisinə qarşı törətdikləri zorakılığın təhqiq edilməsi üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Azərbaycanlılara qarşı törədilmiş zorakılıqların təhqiq edilməsi məqsədilə 107 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə yaradılmış Fövqəladə İstintaq Komissiyası Zaqafqaziyada müsəlmanlara qarşı millətçi erməni-daşnak qüvvələri tərəfindən törədilmiş zorakılıqların, o cümlədən Bakı qırğınının demək olar ki, tam sənəd bazasını yaratmışdır. Cümhuriyyət dövründə iki dəfə - 1919 və 1920-ci illərdə mart ayının 31-i ümummilli matəm günü kimi qeyd edilmişdir. Prezident Heydər Əliyevin 1998-ci il fevralın 26-da imzaladığı Fərmanda qeyd edildiyi kimi: "Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına inkan vermədi...

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

S.Şaumyan və G.Karqanovun rəhbərliyi altında erməni-daşnak silahlı cəza dəstələrinin törətdiyi insanlığa sığmayan qanlı cinayətlərə beynəlxalq aləmdə vaxtında hüquqi qiymət verilsəydi, bəlkə də sonrakı dövrdə erməni-daşnak quldur qüvvələri və onların havadarlarının Qarabağda təşkil etdikləri qanlı qırğınların qarşısını almaq mümkün olardı. Cəzasız qalmış cinayətkar qüvvələr XX əsrin sonlarında Xocalıda misli görünməmiş dəhşətli hərbi cinayət törətdilər. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş Sovet ordusunun 366-cı alayının köməkliyi ilə Xocalı şəhərinin dinc əhalisinə vəhşicəsinə divan tutdular. Erməni separatçıları 10 min əhalisi olan bu şəhəri vəhşicəsinə güllələbaran etdilər, həyata keçirdikləri soyqırımı nəticəsində şəhərin 613 nəfər dinc əhalisi vəhşicəsinə qətlə yetirildi (onlardan 63 nəfəri uşaq, 106-sı qadın, 70 nəfəri qoca olub), 150 nəfər itkin düşdü. Səkkiz ailə büstbütün məhv edildi. 76-sı usaq olmaqla 487 nəfər yaralandı. 1275 nəfər girov götürüldü. Dövlətin və vətəndaşların şəxsi əmlakına 5 mlrd. manat (01.01.1992-ci ilə olan qiymətlərlə) ziyan vuruldu. 1992-ci il fevralın 29-da respublikamızda üç gün müddətində ümummilli matəm elan edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırım Günü elan edilmişdir. Fərmanda qeyd edilir: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir".

Separatist erməni-daşnak millətçilərinin və onların havadarlarının vəhşiliklərini özündə əks etdirən tarixi sənədlər məlum səbəblər ucbatından uzun müddət "əks-inqilabi burjua-mülkədar"damğası altında gizli saxlanılmış, mahiyyətcə millətimizə qarşı törədilmiş soyqırımı olan mart qırğını Azərbaycanda vətəndaş müharibəsi kimi qələmə verilmişdir. Tarixi sənədlər təsdiq edir ki, həmin qırğınlar Azərbaycanda sovet hakimiyyətinin qurulması adı altında tərkibi əsasən ermənilərdən ibarət olan "erməni-daşnak-bolşevik" silahlı dəstələrinin xalqımıza qarşı törətdikləri ən ağır cinayətlərdən biri olmuşdur.

XIX əsrin sonlarından Azərbaycan xalqı ən dəhşətli qırğınlara, işgəncələrə, soyqırıma məruz qalmışdır. Xalqımıza qarşı erməni-daşnak qüvvələri və onların havadarları tərəfindən qırğınlar, soyqırımı siyasəti ayrı-ayrı tarixi dövrlərdə - 1905-1907; 1918-1920; 1948-1953 və 1988-ci ildən sonra təkrarən həyata keçirilmişdir. Keçmiş Rusiya imperiyasının şovinist qüvvələrinin himayədarlığı altında erməni-daşnak millətçi qüvvələrinin xalqımıza qarşı törətdikləri dəhşətli qırğınların və soyqırımının kökündə erməni-daşnak millətçi qüvvələrinin Azərbaycana qarşı əsassız olaraq irəli sürdükləri torpaq iddiası olmuşdur. Zaman göstərir ki, erməni-daşnak millətçi qüvvələri torpaq iddiasından əl çəkməyərək bu iddianı vaxtaşırı olaraq irəli sürmüş, milli qırğınlar, faciələr törətmişlər. Məqsəd Azərbaycanı parçalamaq, zəiflətmək və onun tarixi əraziləri hesabına öz ərazilərini genişləndirərək ikinci erməni dövləti yaratmaq idi.

XIX əsrin 90-cı illərinin ortalarından etibarən erməni məsələsi siyasi məqsədlərlə Türkiyədən Zaqafqaziyaya köçürülmüşdür. Bunun ardınca isə "Daşnaksütyun" partiyası bu bölgədə öz fəaliyyətini gücləndirmişdi. Erməni məsələsinin Cənubi Qafqaza köçürülməsi və "Daşnaksütyun" partiyasının gələcəkdə yaratmaq istədikləri Ermənistan muxtariyyəti üçün ərazilər əldə etmək üzrə öz məqsədli proqramı ilə bu yerlərə soxulması Cənubi Qafqazın həyatına milli düşmənçilik və ədavət toxumlarını səpmişdi. Daşnaklar bu yerlərdə göründükləri ilk vaxtlardan etibarən terror aktları törətməyə başlamışdılar. Çar Rusiyasının XIX əsr boyu və XX əsrin əvvəllərində həyata keçirdiyi köçürmə siyasətinin nəticəsi olaraq ermənilər Azərbaycanda özlərinə yer etmiş və bundan sonra isə özlərinin həqiqi simalarını göstərmişlər.

Tarixi mənbələr təsdiq edir ki, Qarabağ Azərbaycan xalqının əzəli və əbədi torpağıdır, onun tarixi beşiyidir. Çar hakimiyyəti tərəfindən ermənilər geosiyasi məqsədlərlə İran və Türkiyədən kütləvi surətdə köçürülərək Qarabağda yerləşdirilməyənə qədər Azərbaycanın bu tarixi ərazisində milli zəmində belə bir problem və ya münaqişə yaşanmamışdır. 1805-ci ildə Qarabağ xanı İbrahim xanla Rusiya qoşunlarının generalı Sisianovun Kürəkçay sahilində bağladığı müqavilə əsasında Qarabağ xanlığı Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra erməni ailələri geosiyasi məqsədlərlə mərhələ-mərhələ İran və Türkiyədən köçürülərək Qarabağda, Yelizavetpol (Gəncə) və İrəvan quberniyaları ərazilərində yerləşdirilmiş və bununla da süni surətdə "problem" yaradılmışdır. Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri habelə xanlığın Rusiyanın hakimiyyəti altına keçməsi haqqında 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Rusiya imperiyası qoşunlarının generalı Pavel Sisianovun imzaladıqları Kürəkçay traktatı əyani surətdə təsdiq edir ki, imperiya sırf Azərbaycan torpaqlarını işğal etmiş və həmin tarixi sənədlərin heç birində erməni malikanələri və onların Rusiya təbəəliyinə keçməsi haqqında işarə olmamışdır. Qafqazdakı rus qoşunlarının komandanı 22 may 1805-ci il tarixli raportunda qeyd edirdi ki, coğrafi mövqeyinə görə Qarabağ nəinki Azərbaycanın, hətta İranın da daravazası sayılır və ona görə də bu əyalətin öz əlimizdə saxlanmasına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Kürəkçay müqaviləsindən sonra bu vəzifənin yerinə yetirilməsi üçün əlverişli şərait yaranmışdı və həmin dövrdən etibarən Rusiya imperiyası tərəfindən ələ keçirilmiş Azərbaycan torpaqlarına kütləvi surətdə ermənilərin köçürülməsinə başlanmışdı. XIX əsrin əvvəllərindən başlanan köçürülmə prosesləri bir sıra tarixi mənbələrdə, o cümlədən S.N.Qlinka, N.İ.Şavrov, A.S.Qriboyedov, V.L.Veliçko, S.P.Zelinski və başqalarının əsərlərində və digər tarixi mənbələrdə öz əksini tapmışdır.

Çar Rusiyasının müvafiq dövlət qurumları erməniləri Azərbaycanın Qarabağ və digər bölgələrinə köçürərkən xalqı bu proseslərin uzunmüddətli olmayacağına inandırmağa çalışmışlar. Məsələn, köçürülmə planının hazırlanmasında və həyata keçirilməsində xüsusi rolu olmuş A.S.Qriboyedov yazırdı: "...Müsəlmanları düşdükləri indiki sıxıntılarla barışdırmaqdan ötrü biz kifayət qədər düşünürdük ki, vəziyyəti onlara necə təlqin edək ki, müsəlmanları (azərbaycanlıları) üzləşdikləri bu sıxıntıların üzünmüddətli olmayacağına və ermənilərin həmin torpaqları həmişəlik zəbt etməyəcəyinə inandıra bilək". Lakin bütün bunlara baxmayaraq, xalqımıza verilən vədlərin reallıqdan uzaq olduğunu tarix bir daha sübut etdi.

Arxiv sənədləri təsdiq edir ki, kənardan gətirilən ermənilərin Azərbaycan torpaqlarında yeləşdirilməsi prosesi, hətta əzəli türk torpaqlarında yaradılmış və sonra Ermənistan adlandırılan ərazidən Azərbaycan türklərinin qovulduqları vaxtlarda da davam etdirilmişdi. Bu proseslər Azərbaycan Respublikasının Dövlət Arxivində mühafizə edilən bir sıra arxiv sənədlərində də öz əksini tapmışdır. Məsələn, Şamxor qəzasına köçürülmüş ermənilərə Şamxor *(Şəmkir - R.S.)* qəza icraiyyə komitəsi tərəfindən 1921-ci ildə verilmiş vəsiqənin mətnini rus dilindən dilimizə tərcümə etmədən olduğu kimi qeyd edirik: "Дано сие тов. Абгар Осипову со семейством в том, что они действительно беженцы Турецкой подданные уроженцы гор. Вана и временно проживают в гор. Анненфельд (ныне Шамкир), а потому уездисполком просит должностных лиц оказывать им как беженцам всякое содействие". Bu sənəddə açıq-aşkar qeyd edilir ki, "Abqar Osipov və onun ailəsi həqiqətən qaçqındırlar, Türkiyə vətəndaşıdırlar, Van əhlidirlər, müvəqqəti olaraq Annenfeld (Şəmkir) şəhərində yaşayırlar və qəza icraiyyə komitəsi vəzifəli şəxslərdən xahiş edir ki, qaçqın olan həmin şəxslərə hər cür yardım göstərsinlər".

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 23 noyabr 1922-ci il tarixli iclasında qaçqınlar məsələsinə baxılmış və onların sayı barədə məlumatların təqdim edilməsi qəza icraiyyə komitələrinə tapşırılmışdır. Himayə etmə və sosial-təminat üzrə Xalq Komissarlığının Şamxor (Şəmkir) qəzası üzrə müvəkkilinin qaçqınlar barədə 1923-cü ildə AzMİK-ə təqdim etdiyi məlumatdan:

| Kəndlərin adları | Evlərin sayı | Adamların sayı | Milliyyəti |
|---|---|---|---|
| Çardağlı | 54 | 193 | erməni |
| Barım | - | 39 | erməni |
| Georgiyevski | - | 116 | erməni |
| Badakənd | - | 50 | erməni |

Himayə etmə və sosial təminat üzrə Xalq Komissarlığının Şamxor qəzası üzrə müvəkkilinin aclıq çəkən qaçqınlar barədə məlumatından:

| Kəndlərin adı | Qaçqınların sayı | Acından ölənlər | Milli mənsubiyyəti |
|---|---|---|---|
| Geniş kənd | 200 | - | türklər (Azərb.) |
| Cirdahan | 25 | - | türklər |
| Kövlər | 200 | 10 | türklər |
| Aşağı Ayıblı | 250 | 1 | türklər |
| Vüqarlı | 150 | 2 | türklər |

Şamxor qəza icraiyyə komitəsinin təqdim etdiyi 9 aprel 1924-cü il tarixli məlumatından: "Qəza icraiyyə komitəsinin daxili idarəetmə şöbəsi bildirir ki, Şamxor qəzasının Dağlıq zolağında aprelin 6-da güclü qar yağmış, gecə buz bağlamış, Ermənistanla sərhədin Gədəbəy məntəqəsində Yeni Bəyazidə gedən yolda 15 nəfər qaçqın həlak olmuşdur. Həlak olanlar müsəlmanlardır".

Şamxor qəza icraiyyə komitəsinin AzMİK-ə təqdim etdiyi məlumatlara əsaslanaraq qeyd edək ki, həmin dövrdə Azərbaycana həm başqa ölkələrdən qaçmış ermənilər, həm də əzəli türk torpaqlarında yaradılmış Ermənistandan, öz dədə-baba yurdlarından zor gücü ilə qovularaq qaçqın düşmüş Azərbaycan türkləri məskunlaşdırılırdı. Lakin cədvəllərdən göründüyü kimi, Azərbaycanda yerləşdirilmiş erməni qaçqınlar arasında acından ölüm hadisəsinin qeydə alınmadığı halda, Azərbaycan türkləri arasında 13 nəfərin acından öldüyü qeyd olunmuşdur. Həmin məlumatlar bir daha təsdiq edir ki, Azərbaycanda ermənilərə qarşı ayrı-seçkilik edilməmiş və onlara azərbaycanlılardan da yaxşı şərait yaradılmış və qayğı göstərilmişdir. Azərbaycanın tarixi torpaqlarına köçürülərək yerlərini möhkəmləndirmiş və sonralar yaradılan Ermənistan Respublikasının ərazisini qonşu Azərbaycan dövlətinin əraziləri hesabına genişləndirməyə can atan "mədəni" və "dinc" ermənilər neçə onilliklər idi ki, keçmiş Dağlıq Qarabağı Ermənistana birləşdirməkdən ötrü ən iyrənc üsullara əl atırdılar. Erməni millətçiləri bu xülyalarını həyata keçirmək məqsədilə vaxtilə onlara çörək və sığınacaq vermiş Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin dinc əhalisinə qarşı qəddarlıqla qırğınlar törətdilər.

1919-cu ildə Gəncə qubernatoru Vəkilov Azərbaycan Respublikasının xarici işlər nazirinə göndərdiyi məruzəsində erməni millətçilərinin qəddarlığı haqqında qeyd edirdi: "...bütün Avropaya öz mədəniliyi barədə car çəkən, müdafiəsiz dinc əhaliyə qarşı vəhşiliklərin bütün üsullarını tətbiq edən belə bir millətin XX əsrdə mövcudluğuna inanmaq istəmirsən. Onların vəhşiliklərinin həddi-hüdudu yoxdur, onların qarşısında orta əsrlərin zülmətli faciələri solğun görünür...".

XX əsrdən etibarən erməni daşnakları əsassız olaraq Azərbaycana qarşı ərazi iddiaları qaldırırdılar. Təcavüzkar erməni millətçilərinin "xalqların öz müqəddəratını təyin etmək" şüarı altında Azərbaycan Respublikasını parçalamaq cəhdləri daşnaklar tərəfindən yürüdülmüş və perspektivi olmayan köhnə, iyrənc siyasətin davamı idi. Azərbaycana qarşı irəli sürdükləri ərazi iddialarının əsassız olduğunu və onun iflasa uğradığını görən Ermənistan Respublikasının hakim qüvvələri dünya ictimaiyyətinin fikrini azdırmaq məqsədilə elan edirlər ki, onların Azərbaycana qarşı ərazi iddiaları yoxdur.

Ermənilər 1918-ci ildə də belə cəhdlər etmiş və əlbəttə ki, heç bir müvəffəqiyyətə nail ola bilməmişdilər. 21 oktyabr 1918-ci il tarixli "Azərbaycan" qəzeti yazırdı: "...ermənilər müsəlmanları qışda Qarabağ respublikasını tanımağa məcbur etmək istədilər. Ermənilər qurultay çağırdılar... həmin qurultayda ermənilərin əsl siyası siması üzə çıxdı. Ermənilər qurultayın çağırılmasına qədər olan müddətdə təntənə ilə elan etdikləri sosializm, qardaşlıq, ədalət kimi şüarları unutdular. Səhnədə yalnız daşnakların dar millətçiliyi qaldı. Sırf daşnaklardan ibarət hökumət yaradıldı və onlar yalnız Andranik və Şahnazarovun gəlişini gözləyirdilər ki, müsəlmanlara güc tətbiq etməklə özlərinə tabe etsinlər". Lakin Azərbaycan hökuməti erməni millətçilərinin bu niyyətlərini alt-üst etdi. 1919-cu ilin yayında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suveren hüquqları bərpa edildi. Parisdə olan nümayəndələrə göndərilən məlumatda qeyd edilirdi: "Qarabağ adlandırılan məsələ qəti şəkildə həll edildi... 7-ci erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator Xosrov bəy Sultanovla saziş bağladılar".

Tarix onun ibrət dərslərindən düzgün nəticə çıxara bilməyənləri heç vaxt bağışlamayıb. Ermənistanın 2020-ci il sentyabrın 27-də növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, həmçinin Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə əks-hücum əməliyyati başlandı, sonrakı mərhələdə "Dəmir yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi. Vətən müharibəsində Ali Baş Komandan başda olmaqla, Azərbaycan Ordusu və Xalqı möhtəşəm qələbə çalaraq Azərbaycanın 30 ildən artıq müddətdə erməni işğalı altında qalan bütün torpaqlarını azad etdi. Uzun illər işğal altında qalan torpaqlarımız qəhrəman şəhidlərimizin, zabit və əsgərlərimizin, qazilərimizin qanı və canı bahasına azad olundu. Qarabağın aqressiv erməni millətçilərindən təmizlənməsi uğrunda gedən 44 günlük Vətən müharibəsində hərbi qüvvələrimizin üç min nəfərədək hərbi qulluqçusu erməni işğalçılarına qarşı mərdliklə vuruşaraq Vətən yolunda canlarını qurban vermiş, min nəfərdən artıq hərbi qulluqçumuz isə yaralanaraq sağlamlığını itirmişdi.

44 günlük Vətən müharibəsi Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı və bütün dünya şahid oldu ki, Azərbaycan xalqı öz torpağının sahibidir və hər zaman onun keşiyindədir. Vətən müharibəsinin hər günü şanlı tariximizdir və xalqımız bununla fəxr edir, qürur duyur!

**Rafiq SƏFƏROV,**
**Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin sənədlərin nəşri və istifadəsi şöbəsinin baş məsləhətçisi.**